**AR Vəkillər Kollegiyasının Rəyasət Heyətinin sədri cənab Anar Bağırova**

Bakı şəhəri, Xətai rayonu, Məhəmməd Hadi küçəsi ev 81 mənzil 98 ünvanında yaşayan, **Bağırov Vüqar Baləli oğlu** tərəfindən

Telefon: 055 709-11-77

# TƏŞƏKKÜR

**Hörmətli Anar Bağırov!**

İlk növbədə, Azərbaycan vəkilliyinin dünyada və regionda artan nüfuzu, vəkillərin tanınması, cəmiyyətdə vəkillərə və vəkilliyə olan münasibətin dəyişməsi, inamının artması və.s bu kimi görülən uğurlu və məqsədyönlü fəaliyyətinizlə bağlı sadə Azərbaycan vətəndaşı kimi Sizə minnətdarlığımı bildirməklə yanaşı gələcək fəaliyyətinizdə sizə can sagılı və yeni-yeni peşə naliyyətləri arzu edirəm.

Əminliklə bildirirəm ki, Azərbaycan vəkilliyinin inkişafını son zamanlar hüquqi yardım üçün müraciət edən hər bir şəxs daha dərindən hiss etmişdir. Çünki vətəndaşlarımız əvvəlki vəkillkdən tam fərqli hüquqi yardım və vəkil münasibəti ilə qarşılaşırlar.

Şəxsən mən də, Bakı şəhəri 13 saylı vəkillər burosunun savadlı, təcrübəli və çox cəsarətli vəkili Şahməmmədov İlqar Şahməddin oğlunun peşəkar vəkil kimi göstərdiyi keyfiyyətli hüquqi yardımı və insanı münasibətinin şahidi olduğum üçün qürurla bu məktubu Sizə ünvanlamaq qərarına gəldim.

Əminliklə bildirirəm ki, İlqar Şahməmmədov nəinki mənim, hüquqi yardım üçün ona müraciət edən istənilən şəxsə belə münasibət göstərir. Çünki onun peşəkarlılığı, savadı və intizamı ilə yanaşı yüksək ailə tərbiyəsi də var. Mən bu halın şahidi oldum və əminəm ki, kollegiyanın rəhbərliyi də bunu bilir. Vəkillər arasında onun kimi hüquq müdafiəçilərimizin sayının çox olması qürurverici hissdir və o mükafatlandırılmağa layiqli insandır.

Onu da qeyd edirəm ki, onun işlə bağlı peşəkar və uzaq görən addımları kifayət qədər təcrübəli vətəndaş kimi şəxsən məni təəcüblendirdi.

**Hörmətli Anar müəllim!** Bir daha müasir Azərbaycan Vəkilliyinin banisi kimi Sizə və mənə göstərdiyi keyfiyyətli hüquqi yardıma və insanı münasibətə görə Vəkillər Kollegiyasının üzvü, Bakı şəhəri 13 saylı vəkil bürosunun vəkili İlqar Şahməmmədova öz adımdan və ailəm adından təşəkkür edirəm.

**Hörmətlə,**

**Vətəndaş** **Bağırov Vüqar Baləli oğlu**

**19.03.2024-cü il.**

Vəkillər Kollegiyasının
Rəyasət Heyəti
Daxil olma № 1603
«08» 05 2024